# Qərbi Azərbaycan mövzusunda beynəlxalq dəstəyin əldə olunması soydaşlarımızın uğurlarına böyük təminatdır

## Bu istiqamətdə gənclərin fəallığına da xüsusi önəm verilir

**Asiya Parlament Assambleyasının (APA) fevralın 17-21-də Bakıda keçirilmiş sessiyasında qəbul edilmiş yekun sənəddə qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtmasına və QAİ-nin qayıdışla bağlı dialoq çağırışlarına birmənalı dəstək ifadə edilib.**

Özündə 44 dövlətin parlamentini birləşdirən APA-nın qərbi azərbaycanlıların qayıdış hüququna dəstək ifadə etməsi bu mövzunun beynəlxalq sülh və insan hüquqları gündəliyinin əsas məsələlərindən biri kimi qəbul olunmasının növbəti mötəbər təsdiqidir.

Nəinki Asiya Parlament Assambleyasının Bakıda keçirilən sessiyasında, eləcə də başda BMT-nin Katibliyi olmaqla insan hüquq və azadlıqlarının müdafiəsi ilə məşğul olan dünyanın bir çox dövlətlərində hökumət və qeyri-hökumət təşkilatlarında vaxtilə ata-baba yurdlarından zorla qovulmuş və ya 1948-1953-cü illərdə məcburi şəkildə deportasiyaya məruz qalmış insanların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtmasına haqq qazandırılır və dəstək nümayiş etdirirlər.

Qərbi Azərbaycan İcması (QAİ) bu uğurlarda ictimaiyyətin dəstəyini daim gündəmə gətirməklə istər Bakıda, istərsə də respublikanın bölgələrində Qərbi Azərbaycan kökənli gənclərlə görüşlər keçirir. Bu günlərdə Qərbi Azərbaycan İcması və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycan: Tarixin izi ilə" layihəsinin İmişli şəhərində növbəti məlumatlandırıcı sessiyası təşkil edilib.

Sessiyanı giriş sözü ilə açan İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev bu cür tədbirlərin Qərbi Azərbaycan ilə bağlı faktların geniş ictimaiyyətə çatdırılmasında, xüsusilə gənclərin tarix və milli kimlik barədə məlumatlılığının artırılmasında əhəmiyyətini vurğulayıb.

"Regional İnkişaf" İctimai Birliyinin nümayəndəsi Aqil İsmayılzadə bu görüşün Qərbi Azərbaycan tarixi, coğrafiyası, mədəniyyəti, incəsənəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri və tarixi şəxsiyyətləri, toponimləri, folkloru, eləcə də Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın öz doğma yurdlarına qayıtması istiqamətində ölkəmizin haqlı və ədalətli mövqeyini iştirakçıların diqqətinə çatdırıb.

Qərbi Azərbaycan İcması Gənclər Şurasının sədr müavini, Milli Məclisin deputatı Naqif Həmzəyev azərbaycanlılara qarşı tarixi ədalətsizliklər və onların Ermənistan ərazisindən deportasiyasından, habelə soydaşlarımızın ata-baba yurdlarına qayıtması istiqamətində ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə düzgün çatdırılması, tarixi həqiqətlərin yayılması və müdafiəsində gənclərin üzərinə düşən vəzifələrdən danışıb.

Qərbi Azərbaycan İcmasının üzvü, professor Çingiz Abdullayev Qayıdış konsepsiyası barədə məlumat verərək, beynəlxalq hüquq çərçivəsində bu məsələni daim gündəmdə saxlamaq və dünya ictimaiyyətinə çatdırmaq üçün sistemli fəaliyyət göstərilməsinin vacibliyini vurğulayıb.

Sonra Qərbi Azərbaycan İcmasında gənclərlə iş üzrə məsul şəxs Anar İrzaquliyev Qayıdış Konsepsiyasının müddəaları, görülmüş və görülməsi planlaşdırılan işlər barədə geniş açıqlamalar verib.

Tədbirin sonunda iştirakçılarla Qərbi Azərbaycanla bağlı tarixi faktlar, hüquqi məsələlər, gələcək planlar barədə müzakirələr aparılmış, gəncləri maraqlandıran suallar cavablandırılmışdır.

Bakıda, Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Qərbi Azərbaycan İcmasının təşkilatçılığı, Pedaqoji Universitetin dəstəyi ilə "Qayıdış konsepsiyası tələbə gənclərin tədris prosesində" mövzusunda görüşü də ictimaiyyətdə məmnunluq doğurmuşdur.

Universitetin Heydər Əliyev Mərkəzinin Lektoriyasında baş tutan görüşdə Qərbi Azərbaycan İcmasının və ADPU-nun rəhbərliyi, ali təhsil müəssisələrinin rəhbər şəxsləri, təhsil ictimaiyyəti və media nümayəndələri, universitetin professor-müəllim heyəti və tələbələr iştirak etmişdilər. Tədbirin əsas məqsədi Qərbi Azərbaycan həqiqətlərinin təbliği istiqamətində təhsil müəssisələrində tələbə gənclərlə işin səmərəli qurulması, onların Qərbi Azərbaycana qayıdış hüququ və Qərbi Azərbaycan İcmasının fəaliyyəti barədə məlumatlandırılması, tədris materiallarında Qərbi Azərbaycan həqiqətlərinin əks etdirilməsi, İcmanın Gənclər Şurası və universitetlər arasında fəaliyyətlərin koordinasiyası, gənclərin icmanın fəaliyyətinə cəlb olunması işinə töhfə verməkdir.

Görüşün əvvəlində "Qərbi Azərbaycan" mövzusunda nümayiş etdirilən filmdə Qərbi Azərbaycan tarixi, oradan zorla çıxarılmış azərbaycanlıların taleyi və onların öz doğma yurdlarına qayıdış hüququ barədə əsas amillər diqqətə çatdırıldı.

Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli icmanın həyata keçirdiyi layihə və tədbirlərdən, Qayıdış konsepsiyasının mahiyyətindən danışaraq vurğulayıb ki, Qərbi Azərbaycana qayıdış təkcə tarixi ədalətin bərpası deyil, həm də milli kimliyinin qorunması baxımından strateji əhəmiyyət daşıyır. İndiki Ermənistan ərazisindən çıxarılmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiyanın vacib prioritetlərdən olduğunu qeyd edən icma sədri gənclərin bu barədə maarifləndirilməsinin önəmindən söz açıb.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli qeyd edib ki, müasir tədris prosesində Qərbi Azərbaycan həqiqətlərinin təbliğinə geniş yer ayrılmalı, tələbələrə tarixi faktlar sistemli şəkildə çatdırılmalıdır. Məktəblərdə və ali təhsil müəssisələrində maarifləndirmə tədbirləri intensiv keçirilməlidir.

ADPU-nun rektoru professor Cəfər Cəfərov qeyd edib ki, Qərbi Azərbaycan tariximizin və milli-mənəvi irsimizin ayrılmaz parçasıdır. Soydaşlarımızın ata-baba yurdlarından zor gücünə çıxarılması danılmaz tarixi həqiqətlərdir. Tədris prosesində Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, coğrafiyası ilə bağlı materialların daha geniş şəkildə öyrədilməsi, elmi konfransların təşkili tələbələrin bu məsələlərə daha çox cəlb olunması istiqamətində əməli addımlardır və bu baxımdan, universitetlərin, ali təhsil ocaqlarının üzərinə böyük məsuliyyət düşür. Azərbaycan Dövlət Pedaqoji Universitetində Qərbi Azərbaycan həqiqətlərinin təbliği və bu mövzuda maarifləndirmə tədbirlərinin ön planda saxlanıldığını qeyd edən C.Cəfərov 2024-cü ilin martından etibarən ADPU-da Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin fəaliyyətə başladığını və bu sahədə əldə olunan nailiyyətləri diqqətə çatdırdı.

ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, professor Mahirə Hüseynova çıxışında Qərbi Azərbaycan həqiqətlərinin geniş təbliği və tanıdılmasından bəhs edib, ictimaiyyətin bu mövzuda məlumatlılığının artırılmasından, icmanın və Pedaqoji Universitetin bu istiqamətdə həyata keçirdiyi tədbirlərdən söz açdı.

Milli Məclisin Gənclər və İdman Komitəsinin sədri, Qərbi Azərbaycan İcmasının Gənclər Şurasının sədri Şahin İsmayılov çıxışında tələbə-gənclərin bu məsələdə daha fəal iştirakının vacibliyini qeyd edərək bildirib ki, Qərbi Azərbaycan həqiqətlərinin gənclər arasında geniş yayılması və onların bu prosesdə fəal iştirak etməsi gələcək nəsillər üçün də nümunədir.

İcmanın gənclərlə iş üzrə məsul şəxsi Anar İrzaquliyev tələbələr arasında ünsiyyət və ideya müsabiqəsinin təqdimatını edərək onların Qərbi Azərbaycan həqiqətləri ilə bağlı yaradıcı ideyalar irəli sürməsini və maarifləndirici layihələr təklif etməsinin vacibliyini yüksək dəyərləndirdi.

Sonda Qayıdış konsepsiyasından irəli gələn məsələlərin ali təhsil proqramlarında əksi, gənclər arasında təbliği istiqamətləri ilə bağlı geniş müzakirə aparıldı, təklif və ideyalar müzakirə edildi. Görünən odur ki, Qərbi Azərbaycan məsələsi xalqımızın haqq işidir, milli məsələdir. Nəinki, Azərbaycan gəncliyi, dünyanın hansı guşəsində yaşamasından asılı olamayaraq, bütün azərbaycanlılar, tərəqqipərvər insanlar bu məsələnin ədalətli həlli üçün haqq səsini ucaltmalıdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.-13 mart (№55).- S.7.